# Tarixin ilk günü...

## 9 iyun 1993-cü il Saat 15.00

*Mübariz ABDULLAYEV*

Prezident İlham Əliyev: 1993-cü ildə Heydər Əliyev xalqın tələbi ilə hakimiyyətə gəlmişdir və xalqın dəstəyi, inamı hesabına vəziyyət sabitliyə doğru getməyə başlamışdır

Hər bir xalqın, dövlətin tarixində sayı elə də çox olmayan əlamətdar günlər, dönüş məqamları var. Müstəqil Azərbaycan üçün belə əlamətdar günlərdən biri qurtuluş yolumuzun əsası qoyulan 9 iyundur. 1993-cü ilin yayında - ölkədə vətəndaş müharibəsi başladığı çətin, ziddiyyətli bir vaxtda xalqın təkidli tələbi ilə Azərbaycanın siyasi rəhbərliyinə dəvət olunan ulu öndər Heydər Əliyev iyunun 9-da Naxçıvandan Bakıya gəldi. Beləliklə də gənc müstəqil respublikamızın həyatında yeni bir dönəm başladı.

## Azərbaycanın intibahı üçün fundamental əsaslar yaradan tarixi şəxsiyyət

1993-cü ilin yayında XX yüzillikdə ikinci dəfə qazandığımız müstəqilliyin də itirilməsi təhlükəsi yarananda xalqın həmin dövrdə Naxçıvanda fəaliyyət göstərən Ulu Öndərə üz tutması heç də təsadüfi deyildi. Həmin təlatümlü günlərdə respublikamızda özlərini “lider” adlandıranların sayı çox idi. Onlar hakimiyyətə gəlmək üçün dəridən-qabıqdan çıxır, xalqa şirin vədlər verirdilər. Müdrik xalqımız isə doğru seçim edərək məhz Heydər Əliyevin ölkənin siyasi rəhbərliyinə qayıtmasını istəyirdi. Ulu Öndər xalqın bu inamını keçdiyi həyat yolu, Azərbaycan naminə gördüyü işlərlə qazanmışdı.

Məlumdur ki, ulu öndər Heydər Əliyev Azərbaycana bir-birindən fərqli qütblərdə dayanan iki ideoloji formasiyada rəhbərlik edib. Lakin şərait, ideoloji tələblər müxtəlif olsa da, Heydər Əliyevin milli ruhu və uzaqgörənliyi Onun Azərbaycana rəhbərlik etdiyi hər iki dönəmdə - istər keçmiş sovet dövründə, istərsə də müstəqillik illərində respublikamızın böyük uğurlar əldə etməsinə yol açıb. Keçmiş sovet dövrü milli respublikalar, o cümlədən də Azərbaycan üçün bir sıra qadağalarla səciyyələnirdi. 1969-cu ildə Azərbaycanın rəhbərliyinə gələn Heydər Əliyev isə rejimin buxovlarını məharətlə sındıraraq milli dirçəlişə, gələcəkdə müstəqil yaşamağa zəmin ola biləcək fundamental əsaslar yaratmağa nail oldu. Heydər Əliyev qısa müddətdə respublikamızı keçmiş ittifaqın aqrar əlavəsindən çıxardaraq yüksək texnologiyalı sənaye inkişafına istiqamətləndirdi.

Heydər Əliyevin Azərbaycanın sabahı naminə misilsiz fəaliyyəti bütün mühüm istiqamətləri əhatə edirdi. Bu sırada Ulu Öndərin milli mədəniyyətə, ədəbiyyata, Azərbaycan dilinə böyük qayğısını xüsusi qeyd etmək lazımdır. Milli mədəni irsin xalqın özünüdərk hissinin yüksəlməsində rolunu yüksək qiymətləndirən Heydər Əliyev ənənələrin qorunub saxlanılmasını, Bakıda ədəbiyyat və incəsənət xadimlərinə abidələrin ucaldılmasını, klassik şair və yazıçıların əsərlərinin çapını daim diqqət mərkəzində saxlayırdı ki, bütün bunlar da insanlarda milli mənsubiyyətə görə sonsuz qürur yaradırdı. Ümummilli liderin zamanında məqsədyönlü şəkildə yaratdığı zəngin irs sonralar müstəqil Azərbaycanın iqtisadi və mədəni əsaslarına çevrildi.

## Ulu Öndərin xilaskarlıq missiyası

Ulu öndər Heydər Əliyev 1987-ci ilin oktyabrında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun və şəxsən Baş katib Mixail Qorbaçovun yeritdiyi siyasi xəttə etiraz əlaməti olaraq tutduğu vəzifələrdən istefa verdi. Lakin vəzifədən getsə də, Heydər Əliyevin qəlbi yenə də Azərbaycanla döyünürdü. Ulu Öndərin tutduğu vəzifələrdən istefa verməsi də sanki xalqımız üçün xoş bir qismət idi. Heydər Əliyevin həyatının və fəaliyyətinin bundan sonrakı mərhələsi müstəqilliyimizin əsaslarının qurulması ilə əlamətdar oldu. Bu yola qədim diyar Naxçıvandan başlanıldı. Heydər Əliyev 1990-cı ildə Moskvadan Bakıya qayıtmaq məcburiyyətində qaldı. Lakin imperiya nökərləri-bəhs olunan dövrdə Azərbaycanın rəhbərliyində təmsil olunan şəxslər Heydər Əliyevin Bakıya qayıdışını kresloları üçün təhlükə hesab edərək Onun paytaxtda qalmasını əngəllədilər. Ulu öndər doğulduğu Naxçıvana üz tutdu və burada insanlar Onu böyük sayğı ilə qarşıladılar. Həmin ilin payızında Heydər Əliyev Babək rayonunun Nehrəm kəndindən Azərbaycan Respublikasının Ali Sovetinə deputat seçildi. Ulu Öndər, eyni zamanda, Naxçıvan Ali Sovetinə də deputat seçilmişdi. Muxtar Respublikanın Ali Sovetinin seçkilərdən bir qədər sonra-17 noyabr 1990-cı il tarixində çağrılan sessiyasına sədrlik Heydər Əliyevə həvalə olundu. Sessiyada Ulu Öndərin təşəbbüsü ilə Naxçıvan Ali Sovetinin adı dəyişdirilərək onun Naxçıvan Respublikasının Ali Məclisi adlandırılması haqqında qərar çıxarıldı, Azərbaycan Xalq Cümhuriyyətinin o vaxtlar çoxlarının tanımadığı üçrəngli bayrağı Naxçıvan Ali Məclisində qaldırıldı.

Tale elə gətirdi ki, həmişə Azərbaycanın müstəqilliyini arzulayan, bütün şüurlu fəaliyyətini bu istiqamətdə quran və yuxarıda qeyd etdiyimiz kimi bunun üçün fundamental əsaslar yaradan Heydər Əliyev respublikamızın ötən əsrin 90-cı illərinin əvvəllərində ikinci dəfə əldə etdiyi müstəqilliyini qorumaq missiyasını da elə Özü yerinə yetirdi. O dövrün mənzərəsini göz önündə canlandıraq. Xaos, iqtisadi və siyasi böhran, vətəndaş qarşıdurması, torpaqlarımızın işğal altına düşməsi, cəmiyyətdəki sabahkı günə ümidsizlik müstəqilliyin ilk illərində ölkəmizi səciyyələndirən əsas cəhətlər idi. Bir tərəfdən, zorakılıq yolu ilə hakimiyyətə gələn AXC-“Müsavat” iqtidarının səriştəsizliyi nəticəsində ölkədə yaranan vətəndaş qarşıdurması, digər tərəfdən isə, Ermənistanın respublikamıza qarşı elan olunmamış müharibə aparması, havadarlarının köməyi ilə torpaqlarımızı işğal etməsi Azərbaycanı, sözün əsl mənasında, ölüm, ya qalım dilemması ilə üz-üzə qoymuşdu. Vəziyyət o qədər ciddi hal almışdı ki, hətta müstəqilliyin itirilməsi təhlükəsi də real idi.

Bütövlükdə, Azərbaycanın inkişaf salnaməsini yazan Ulu Öndər bu dəfə də ona bəslənilən ümidləri qırılmağa qoymadı və xalqının yanında olmağa qərar verərək 1993-cü il iyunun 9-da Bakıya gəldi və iyunun 15-də Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi. Bir qədər sonra isə Milli Məclisin qərarı ilə ulu öndər Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı. Heydər Əliyev 1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində Azərbaycan Respublikasının Prezidenti seçildi. O, 1998-ci il oktyabrın 11-də xalqın yüksək fəallığı şəraitində keçirilən seçkilərdə səslərin 76,1 faizini toplayaraq yenidən Azərbaycan Respublikasının Prezidenti seçildi.

Ümummilli lider Heydər Əliyevin müdik və uzaqgörən siyasəti sayəsində Azərbaycanda hadisələr müsbət məcraya yönəldi, ölkənin parçalanması təhlükəsi aradan qaldırıldı, qanunsuz silahlı qruplaşmaların dövlət çevrilişləri cəhdlərinə son qoyuldu. Bəhs olunan tarixi dövrə ekskur edən Prezident İlham Əliyev vurğulayıb: “Bax bu ağır vəziyyətdə - 1993-cü ildə Heydər Əliyev xalqın tələbi ilə hakimiyyətə gəlmişdir və xalqın dəstəyi, inamı hesabına vəziyyət sabitliyə doğru getməyə başlamışdır”.



## Azərbaycanı böyük uğurlara aparan yol

Azərbaycanda Ulu Öndərin əsasını qoyduğu siyasətin son 20 ildə Prezident İlham Əliyev tərəfindən məqsədyönlü şəkildə davam etdirilməsi ölkəmizin bugünkü müsbət reallıqlarını yaradıb. Prezident İlham Əliyevin vurğuladığı kimi, biz Azərbaycanda güclü, özünə güvənən, müstəqil dövlət qururuq. Bu dövlət əbədi yaşamalıdır və uğurla yaşamalıdır.

Ulu öndər Heydər Əliyevin əsasını qoyduğu siyasətin varisliyinin təmin olunması sayəsində respublikamız özünün iqtisadi mütəqilliyini və bu əsasda siyasi müstəqilliyini tam təmin edib. Bu gün Azərbaycan heç bir kənar gücdən asılı deyil, beynəlxalq səviyyədə özünün milli maraqlarını qətiyyətlə qoruyur. Qısa müddətdə respublikamız regionun lider dövlətinə çevrilib. Eyni zamanda, dünyada Prezident İlham Əliyevin beynəlxalq həmrəyliyin möhkəmlənməsini hədəfləyən təşəbbüsləri, ölkəmizin mövqeyi nəzərə alınaraq qəbul olunur. Ulu Öndərin əsasını qoyduğu qurtuluş yolu ilə inamla irəliləyən müstəqil Azərbaycanın ən böyük uğuru isə 44 günlük müharibədə şanlı Zəfərə imza atmasıdır. Bu Qələbə sayəsində respublikamız ərazi bütövlüyünü öz gücünə təmin etdi. Postmüharibə dövründə isə işğaldan azad olunmuş ərazilərdə genişmiqyaslı quruculuq-bərpa işləri həyata keçirilir, artıq “Böyük Qayıdış”a start verilib. Bütün bunlar isə müstəqil Azərbaycanın gücünü və qüdrətini nümayiş etdirir.